Nakam tale

(Milli Qəhrəman Vüqar Hüseynova həsr olunmuş sənədli film)

XIX əsrin son ixtirası. Kino!.. Bəli, XIX əsrin sonu, XX əsrin astanasında Fransada yaradılan kino çox qısa müddət ərzində özünə yaşamaq hüququ qazandı. Musiqinin, memarlığın, ədəbiyyatın, rəssamlığın, heykəltəraşlığın, rəqslərin və teatrın çoxəsrlik təcrübəsindən istifadə etməyə başlayan kino texniki ixtira kimi meydana çıxsa da dövrün ən iri kəşfləri ilə bir sırada durdu. Azərbaycan isə bütün Şərq aləmində ilk kinonun əsasını qoymaqla, bir daha bəşər mədəniyyəti tarixində özünəməxsus yer tutur...

Hər il avqustun 2-si kino işçilərinin peşə bayramı günü kimi qeyd edilir. Bu günlərdə redaksiyamızın qonağı olan ***publisist, kinossenarist Rəfiqə Məsudla*** *məhz bu mövzu ətrafında söhbət edəcəyik. Onu da deyək ki, Rəfiqə Məsud gənclik illərindən, hələ tələbə ikən mətbuat aləminə gəlib, respublikanın ən nüfuzlu qəzet və jurnallarında maraqlı yazılarla müntəzəm çıxış edib. Sonra taleyini televiziya ilə bağlayıb və jurnalistlik fəaliyyətini iki istiqamətdə davam etdirib. Uzun illərdir ki, həm də ssenari müəllifi kimi çalışır, 50-dən artıq bədii-sənədli filmin müəllifidir. Bu günlərdə Rəfiqə Məsudun "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən növbəti sənədli filmi tamamlanmışdır. "Nakam tale" adlanan filmin qəhrəmanı 22 yaşlı şəhid Vüqar Hüseynovdur...*

– Rəfiqə xanım, bizim sizinlə görüşümüz kino işçiləri günü ərəfəsinə təsadüf edir. Bu münasibətlə bütün kino işçilərini, o cümlədən sizi də təbrik edirik. Kino bəşər mədəniyyətinin, daha dəqiq desək, XIX əsrin son ixtirası kimi tarixə düşüb, böyük inkişaf yolu keçib. Məncə, kino tarixinə qısaca nəzər yetirmək pis olmazdı...

– Çox sağ olun, mən də sizin təbrikə qoşulur, Azərbaycanın kino işçilərinə öz şərəfli işlərində uğurlar arzulayıram. Məlumdur ki, 1895-ci il martın 22-də Parisdə Lui-Lümyer qardaşlarının eksperiment kimi bəşər tarixində ilk dəfə olaraq filmləri nümayiş etdirilirdi. Elə həmin il dekabrın 28-də Parisdə Kaputsinov bulvarındakı "Qran kafe" zirzəmisində dünyada ilk kinoteatr hesab olunan "Hind salonu"nda qardaşların öz filmləri ixtira etdikləri aparatla geniş kütləyə nümayiş olundu. Həmin məqam bəşər tarixinə kinonun yaranması günü kimi daxil olmuşdur.

– Bəs, Azərbaycanda ilk kinonun yaranması hansı dövrə təsadüf edir?

– Kino tədqiqatçılarının araşdırmaları onu göstərir ki, fransızlardan sonra Şərq aləmində, o cümlədən Zaqafqaziya respublikaları arasında Azərbaycan kino yaradılması sahəsində birinci məmləkət olmuşdur. Belə ki, kino 1896-cı ilin ortalarında Zaqafqaziya respublikaları içərisində ilk dəfə Azərbaycana gəlmişdir. O vaxtlar Bakıda xarici filmlər nümayiş etdirilirdi. Azərbaycanda ilk kino çəkilişi isə Bakıda 1898-ci ilin may ayında aparılıb.

Azərbaycan kinosunda 30-cu illərdə üç böyük hadisə baş verdi: kinomuza səs gəldi, kinematoqrafçılarımız ilk dəfə animasiya kinosunu yaratdılar və bunun ardınca isə respublikamızda dublyaj işini təşkil etdilər. 1931-ci il iyulun 28-də Bakıda "Forum" kinoteatrı istifadəyə verildi və Sankt-Peterburqdan dəvət olunmuş səs operatoru M.Murovun rəhbərliyi altında ilk səsli sənədli filmlərin istehsalına başlandı. 1935-ci ildə istehsal olunan "Mavi dənizin sahilində" filmi kino tariximizə ilk səsli bədii film kimi daxil edildi. İlk multiplikasiya filmi isə 1936-cı ildə çəkilib.

1965-ci ildə "Azərbaycanfilm" kinostudiyası yeni binaya köçdükdən sonra filmlərin çəkilişi üçün şərait daha da yaxşılaşdı. Dublyaj işi sahəsində də uğurlu addımlar atıldı. Ümumiyyətlə, kinomuzun inkişaf yolu daşlı-kəsəkli olmuşdur. Bütün çətinliklərə baxmayaraq, kinematoqrafçılarımız sənət naminə əzab-əziyyətdən keçərək onu inkişaf etdirmiş, gözəl ekran əsərləri yaratmışlar.

– Bəli, həqiqətən, kino çətin peşədir, uzun illərdən bəri bu sahədə çalışan bir insan kimi bunu siz də təsdiqləyə bilərsiniz. Tamaşaçını təəccübləndirmək, sevindirmək, düşündürmək... asan məsələ deyil. Ümumiyyətlə, sizin maraqlı ekran əsərləriniz çoxdur. Son vaxtlar isə milli qəhrəmanlarımıza həsr edilmiş filmlərə daha çox yer ayırırsınız...

– Biz zorla müharibəyə cəlb olunmuş bir ölkə, bir xalqıq... Tarixən, həmişə belə olub, torpağın hər qarışı uğrunda mübarizədə qurbanlar, şəhidlər vermişik. Ermənilərin təcavüzü nəticəsində torpaqlarımız itirildi, şəhidlərimiz oldu. Həyatı örnək olan igid övladlarımızın adları, qəhrəmanlıqları unudulmamalıdır. Biz də elə bu məqsədlə "Azərbaycanın Milli Qəhrəmanları" silsiləsindən sənədli filmlərin çəkilişinə başladıq. Bu sahədə ilk layihəni hazırlayıb təqdim edəndə, bilirdim ki, heç də asan olmayacaq. Axı, şəhid olmuş qəhrəmanların doğmaları, yaxınları ilə görüşmək, onları danışdırmaq, material toplamaq insanı mənən incidir. Sağalmayan, qaysaq bağlamayan yaraları təzədən qoparmaq çox ağırdır. Ancaq bunları etməliyik, nə qədər acı, ağır olsa belə. Eşitdiklərim, gördüklərim bəzən mənə uzun müddət rahatlıq vermir. Son söz həmişə tamaşaçının olur.

Azərbaycanın görkəmli teatr xadimi, Abbasmirzə Şərifzadə deyirdi: "Kino musiqidir, kino teatrdır, kino ədəbiyyatdır, kino aləmdir, lakin bütün bunlar ayrı-ayrılıqda bir-birinə biganə olaraq qalmır, birləşərək filmə axıb gəlir. Hər biri onun orqanik üzvü olur".

– Sizin Azərbaycanın milli qəhrəmanlarına həsr etdiyiniz sənədli filmləri etinasız, sakit, adi seyrçi kimi izləmək olmur. Döyüş kadrları, qəhrəmanın həyatının bəzi məqamları, aktyorların köməyilə təqdim olunan səhnələr obrazı açmaqla yanaşı, həm də tamaşaçıda düşmənə nifrət hissini gücləndirir və qürur yaşadır. "Nakam tale" də belədir.

– "Salnaməfilm" studiyasının istehsal etdiyi "Nakam tale" növbəti filmimizdir. Bu filmdə də 22 yaşlı şəhid, Milli Qəhrəman Vüqar Hüseynovun qəhrəmanlığını, şücaətini əbədiləşdirməyə çalışmışıq.

Sənədli filmlər olmuş hadisələrin, gerçək həyatın lentə alınması əsasında yaradılır. Sənədli filmlərin yaradılması bilavasitə kinematoqrafiyanın tarixi ilə bağlıdır. Çünki bu kinosüjetlər sənədli kino kadrlarından ibarətdir. Sənədli filmin əhəmiyyəti təkcə həyati hadisələri birbaşa təhlil etməkdən ibarət deyil. Sənədli filmlər konkret fakt və hadisələri müqayisə və təhlil etmək üçün də geniş imkanlara malikdir. Sənədli film reallığın yaradıcı şəkildə təsviri deməkdir. Gerçəkliyə nə qədər yaxınlaşırsansa, o qədər də təsirli və keyfiyyətli əsər yarada bilirsən. Kino yaradıcılığı mənim həyatıma, qanıma hopub. Uzun illərdir kino sənəti ilə, yaradıcılıqla məşğulam və onlarla filmin ssenari müəllifiyəm. "Salnaməfilm" studiyasında istehsal olunan bir neçə filmin də ssenari müəllifiyəm. Yaxşı film ərsəyə gətirmək üçün ilk növbədə gözəl yaradıcılıq imkanı olmalıdır. Filmlərin uğurlu alınması üçün "Salnaməfilm" studiyasında tam şərait mövcuddur. Ən əsası isə mövcud olan əhval-ruhiyyədir. Təmiz ab-havanın mövcudluğu belə filmlərin yaradılmasına imkan verir. Filmin uğurlu alınmasında "Salnaməfilm" studiyasının rəhbərliyinin köməyi xüsusi olub. Filmi işlərkən uğurun olacağı səni düşündürmür, əsas "tamaşaçını qane edə biləcəksənmi?" sualı ətrafında düşünürsən. Bu baxımdan çalışıram ki, yaratdığım, qələmə aldığım filmlərin ssenarisi təsirli və baxımlı olsun. Kinematoqrafiyanın ən xırda imkanlarından istifadə edim. Buna nə qədər nail olmağımı isə filmlərə baxan tamaşaçılar deyə bilər.

Şəhidlik həyatın davamıdır. Şəhid adı elə yüksək zirvədir ki, o ucalığa hər kəsin əli çatmaz. 1988-ci ildə erməni millətçilərinin xalqımıza qarşı təcavüzü, bu mənfur siyasətin məqsədi azərbaycanlıları öz tarixi torpaqlarından qovmaq, Azərbaycan dövlətçiliyinin varlığına son qoymaqla "böyük Ermənistan" yaratmaq idi. Vətənə can qurban vermiş ər oğullarımızın hər birinin qəhrəmanlığı, xalqımızın milli qüruru, iftixarı, başucalığı, əzəmətidir. Bu savaş - Vətən savaşıdır. Əgər xalqın bircə nəfəri belə şəhidlik zirvəsinə yüksələ bilirsə, deməli, həmin xalq ləyaqət haqqına sahibdir.

Qarabağ uğrunda gedən döyüşlərin qaynar xətti boyunca düşmən həmlələrinə sinə gərmiş igid oğullarımız bütün Azərbaycanı qorumuşdur.

Ailədə üç övladın ilki idi Vüqar, o, 1969-cu ildə dağı-yamacı, dərəsi-təpəsi, bağı-bağatı, dişgöynədən kəhrizləri olan Cəbrayılın Daşkəsən kəndində dünyaya gəlib. Bu kəndin ulusu, ucası, ərləri-ərənləri çox olub. Vüqar mayası halallıqla, saflıqla yoğrulan belə bir yurdda doğulduğu üçün fəxr edirdi. Ukraynada daxili qoşun hissələrinin birində hərbi xidmətdə olan Vüqar nümunəvi əsgər idi. Valideynləri hərbi hissənin komandanlığı tərəfindən dəfələrlə təşəkkür məktubu alırdı. Bu keyfiyyətinə görə o, komandirlik məktəbinə göndərilir, oranı bitirdikdən, hərbi xidməti başa vurduqdan sonra vətənə qayıdan Vüqar Bakıda "Kirovneft"də işləməyə başlayır. 1989-cu ildə erməni quldurlarının Qarabağda siyasi oyunları gedirdi. Hər gün bəd xəbərlər alır, böyük sarsıntı keçirirdi. O, Azərbaycan Respublikası DİN-in xüsusi təyinatlı milis dəstəsinin sıralarına daxil olmaq üçün ərizə ilə müraciət edir və qəbul olunur. Milis formasında valideynlərinin görüşünə gələn Vüqar məqsədini deyəndə anası göz yaşı tökərək etiraz etsə də, o, fikrindən dönmür. Az zamanda onun səsi-sorağı Xocalı aeroportundan, Şuşa-Laçın yolundan... gəlir. Goranboyun Qaladərəsi kəndi yaxınlığında vurulan şəhid jurnalist Salatın Əsgərovanı qətlə yetirən erməni quldur dəstəsinin tutulub zərərsizləşdirilməsində böyük şücaət göstərir.

Hər zaman ön cəbhədə olar, ən ağır döyüş nöqtəsinə gedərdi. Qorxmurdu, amma qədərə inanırdı: "Alnıma nə yazılıbsa, o da olacaq" - deyirdi: 1991-ci ildə Goranboyun Gülüstan qəsəbəsində ermənilər çıxarmaq üçün 14 nəfərlik dəstəsi ilə igidliklə döyüşür. Bu ağır döyüşlərdə özü də düşmən gülləsinə tuş gəlir, əbədiyyətə qovuşur. Cəsurluq, qorxmazlıq ona nəsildən, kökdən gəlirdi. Eldə-obada tanınan din xadimi babası da 1918-ci ildə Qafqaz İslam Ordusunun tərkibində erməni mənfurlarına qarşı döyüşmüşdü.

O vaxt ilk dəfə 11 nəfərə Azərbaycanın Milli Qəhrəmanı adı verilir ki, onlardan biri də Vüqar Hüseynov olur. O, ölməzliyi ilə əbədi yaşamaq haqqı qazandı, özü isə nakam tale yaşadı.

Filmdə onun döyüş yoldaşları Məmmədəli Məmmədov, Ədalət Əliyev, sinif yoldaşı Nazim Qurbanov, müəllimi Qabil Quliyev, atası Tofiq Hüseynov və qardaşı Həbib Hüseynovun çıxışlarına, Vüqarla bağlı xatirələrə geniş yer verilib. Mən fürsətdən istifadə edib texniki dəstəyə görə "TV-Media Azerbaijan"a və "Buta Film"ə minnətdarlığımı bildirirəm.

Filmi ərsəyə gətirənlər ssenari müəllifi Rəfiqə Məsud, rejissor Taleh İsmayılov, operator Rüfət Süleymanov, texnik Sabit Qədirov, montajçı Habil Məmişov, səs rejissoru Mehman Nadirov, redaktor Nadir Bədəlov, icraçı prodüsser Azad Axundov, prodüsser Nazim Hüseynovdur.

– Bu, bir filmin tarixi idi, inanırıq ki, Rəfiqə Məsudun bu istiqamətdə fəaliyyəti davam edəcək, onun müəllifliyi ilə yeni-yeni bədii-sənədli filmlər çəkiləcək.

Kino işçilərinin peşə bayramı günündə bir daha bu sahədə çalışan, mədəniyyətimizə xidmət edən hər kəsə uğurlar diləyirik.

Zümrüd QURBANQIZI,
"Respublika".